# HALAL UYĞUNLUQ SERTİFİKATI VƏ NİŞANINDAN İSTİFADƏ TƏLİMATI

| | | |
|---|---|---|
| **E. Sadıqov**<br>Keyfiyyətə nəzarət departamentinin böyük mütəxəssisi | **K. Şərifli**<br>Keyfiyyətə nəzarət departamentinin böyük mütəxəssisi | **V. İsmayılzadə**<br>Keyfiyyətə nəzarət departamentinin müdiri |
| **Tarix:** | **Tarix:** | **Tarix:** |
| **Hazırladı** | **Yoxladı** | **Təsdiq etdi** |

*« Bu sənəd AQTİ mülkiyyətidir və hüquqları qanunun mülki müddəalarına uyğun olaraq qorunur »*

# MÜNDƏRİCAT

1. MİQYAS VƏ MƏQSƏDLƏR ____ 3

2. ƏLAQƏLİ SƏNƏDLƏR ____ 3

3. TERMİNLƏR ____ 3

4. CAVABDEHLƏR ____ 3

5. FƏALİYYƏTLƏRİN TƏSVİRİ ____ 3

## 1. MİQYAS VƏ MƏQSƏDLƏR

Bu təlimatın məqsədi Azərbaycan Qida Təhlükəsizlyi İnstitutunun (bundan sonra - AQTİ) Sertifikasiya şöbəsi tərəfindən HALAL sertifikatlaşdırılması həyata keçirilən müəssisələrin HALAL Uyğunluq serifikatı və nişanından istifadə qaydalarını müəyyən etməkdir.

## 2. ƏLAQƏLİ SƏNƏDLƏR

- OIC/SMIIC 2:2019 "Uyğunluğun Qiymətləndirilməsi – Halal sertifikatlaşdırma təmin edən təşkilatlara dair tələblər"
- ***"AKR-Rh-005 HAK Resmi Logosu ve Helal Akreditasyon Markasının Kullanım ve İzlenebilirlik Rehberi"***
- AZS ISO/IEC 17065 "Uyğunluğun qiymətləndirilməsi. Məhsulların, proseslərin və xidmətlərin sertifikatlaşdırılmasını aparan orqanlara dair tələbələr"

## 3. TERMİNLƏR

***AQTİ*** Halal uyğunluq nişanı - uyğunluğu qiymətləndirən qurumun akkreditasiya olunduğunu bəyan etmək məqsədi ilə istifadə etdiyi nişan

***AQTİ - Azərbaycan Qida Təhlükəsizlyi İnstitutu***

***PHŞ - Publik hüquqi şəxs***

***HAK- Halal akkreditasiya qumu (Helal akkreditasiya kurumu)***

***"HAK" halal akkreditasiya nişanı - Halal uyğunluğu qiymətləndirən orqan tərəfindən halal akkreditasiya statusunu göstərmək üçün istifadə edilən, forması və istifadə şərtləri HAK tərəfindən müəyyən edilən işarədir.***

## 4. CAVABDEHLƏR

Şöbə müdiri

Keyfiyyət üzrə mütəxəssis

Bütün personal

## 5. FƏALİYYƏTLƏRİN TƏSVİRİ

### 5.1 Sertifikatlaşdırılmış müştəriyə dair tələblər

Sertifikatlaşdırılmış müştəri aşağıda qeyd olunan tələbləri yerinə yetirməlidir:

AQTİ tərəfindən HALAL Uyğunluq sertifikatı və nişanından istifadə hüququ verilmiş təşkilatlar müqavilə qüvvədə olduğu müddət ərzində bu təlimatda qeyd olunan şərtlərə əməl etməlidir. Bu təlimatın müddəalarından kənar sertifikat və ya nişandan istifadə halları aşkar edildiyi təqdirdə qanunvericiliyə uyğun olaraq tədbir görüləcəkdir;

İnternet, ictimaiyyətə açıq məlumatlar, broşuralar və ya reklamlar kimi kütləvi informasiya vasitələrində sertifikatlaşdırma statusuna istinad edərkən müqavilə və bu təlimatın şərtlərinə əməl edilməlidir;

Sertifikatlaşdırma müddətinin başa çatması, Sertifikasiya şöbəsi tərəfindən sertifikatlaşdırmanın dayandırılması və ya ləğv edilməsi kimi hallarda sertifikat və nişandan istifadə və eləcə də sertifikatlaşdırmaya dair istinadı ehtiva edən reklam fəaliyyətləri dayandırılmalıdır;

Sertifikatlaşdırmanın əhatə dairəsi dəyişdirildikdə bütün reklam materialları/fəaliyyətləri də müvafiq olaraq dəyişdirilməlidir;

Sertifikatlaşdırmanın sertifikatlaşdırma çərçivəsindən kənar fəaliyyətlərə aid olduğu təəssüratı yaranmamalıdır;

Sertifikatdan AQTİ-nin və ya halal sertifikatlaşdırma sisteminin reputasiyasına xələl gətirəcək və ictimai etimadın itirilməsinə səbəb olacaq şəkildə istifadə edilməməlidir;

Təkrar sertifikatlaşdırmadan keçməyən/keçə bilməyən müştərilər öz ərazisində(sahələrində) və ya istehsal olunmuş halal məhsul/xidmətlərdə, market və ya supermarketlərin keçidlərində halal nişanından istifadəni dayandırmalıdırlar;

Sertifikatlaşdırılmış müştəri təlimatda qeyd olunan şərtləri yerinə yetirmədiyi halda sertifikatdan istifadənin dayandırılması, ləğv edilməsi və ya sertifikasiya sahəsinin məhdudlaşdırılması kimi tədbirlər həyata keçiriləcək.

Sertifikatlaşdırılmış müştəri heç bir qeyri-müsəlman təşkilatın loqosunu/işarəsini/simvolunu/şüarını və/yaxud qeyri-müsəlmanların inanclarını və ya onların qurumlarını xatırladan hər hansı digər məqamları heç bir yerdə (məsələn, internet saytı, məhsul qablaşdırması, broşuralar, sertifikat və s.) AQTİ Halal Markası (HAK RƏSMİ LOQOSU) ilə birlikdə istifadə edilməməli və müvafiq nişanın bu şəkildə istifadəsinə icazə verməməlidir.

Halal sertifikatlı təşkilat bütün Halal sertifikatlı halal məhsulları üzərində Halal nişanını aydın şəkildə çap etməli və hər qutunun/bağlamanın üzərinə etiketləməlidir. Etiket təhlükəsiz, möhürlənmiş/ilişdirilmiş, əlçatmaz və silinməz olmalıdır və paketdə, o cümlədən açıq şəkildə görünməlidir. məhsulun identifikasiya etiketi və qiymət etiketi onların heç birinin və ya hamısının identifikatorlarla tam və ya qismən əhatə olunmasına səbəb olmamalıdır.

## 5.2 AQTİ Halal uyğunluq sertifikatı

- HALAL Uyğunluq sertifikatı müştərinin sertifikatlaşdırma sahəsinə daxil olmayan bölmə, müştəriyə tabe qurum, filial və ya ortaqlar tərəfindən istifadə edilə bilməz;
- Sertifikatlaşdırılmış müştərilərə verilən Halal Uyğunluq Sertifikatı SS.XX.EE.NN.YY kodlaşdırma sistemindən istifadə edilir. SS- müvafiq olaraq Sertifikasiya Şöbəsi, XX- qeydiyyat obyektinin kodu (Halal uyğunluq sertifikatı üçün 01), EE-qeydiyyatın ardıcıl nömrəsi, NN-yenidən verilmiş sertifikat blanklarının sayı, YY-müvafiq ilin son iki rəqəmi ifadə edilir. EE isə 01-dən başlayaraq sertifikatlaşdırılmış müştəri təşkilatlarına verilən sıra nömrəsinə aiddir;
- Sertifikatlaşdırılmış müştəri sertifikatlaşdırma sahəsinə daxil olan bütün məhsulların üzərində AQTİ Halal loqosu ilə yanaşı özünəməxsus halal sertifikat nömrəsini də əks etdirməlidir;
- Sertifikatldırılmış müştəri sertifikatı oxunaqlığını pozacaq şəkildə çoxalda və ya qeyri-qanuni üsulla orijinal nüsxə və ya surətlərində dəyişiklik edə bilməz;
- Sertifikatldırılmış müştəri AQTİ-nin nəzarəti və icazəsi olmadan sənədi başqa dillərə tərcümə edə bilməz;

## 5.3 AQTİ Halal uyğunluq nişanı

- AQTİ publik hüquqi şəxsinin HALAL Uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərində istifadə etdiyi nişandır;
- Nişan Şəkil A-da verilən rəng və formatda olmalıdır;
- Nişan məhsul sertifikatı kimi istifadə edilə bilməz;
- Yalnız sertifikatlaşdırma sahəsinə daxil olan fəaliyyət sahələrində sertifikatlaşdırması başa çatmış müştərilər tərəfindən istifadə edilə bilər;
- Sertifikatlaşdırma sahəsinə daxil olmayan bölmə, müştəriyə bağlı təşkilatlar və ortaqlar tərəfindən istifadə edilə bilməz;
- Laboratoriya müayinələrində, kalibrləmə və ya nəzarət protokollarında/sertifikatlarında istifadə edilə bilməz;
- Halal sertifikatlı müştəri bütün Halal sertifikatlı məhsullar üzərində AQTİ Halal Uyğunluq nişanını aydın şəkildə çap etməli və hər qutunun/bağlamanın üzərinə etiketləməlidir. Etiket təhlükəsiz, möhürlənmiş/ilişdirilmiş, əlçatmaz və silinməz olmalıdır;
- Təşkilatın reklam nəşrlərində, rəsmi sənədlərində və ya tanıtım broşürlərində istifadə oluna bilər;
- Halal uyğunluq nişanı müştəri tərəfindən orijinal xüsusiyyətlərini dəyişməmək şərti ilə müştərinin qablaşdırmasına uyğun rəngdə çap oluna bilər;
- Halal uyğunluq nişanı sorğu əsasında elektron şəkildə müvafiq müştərilərə göndərilir.
- ***Halal uyğunluq nişanı məhsulun birinci və ikinci qablaşdırmasında istifadə edilə bilər.***

### 5.4 Helal Akreditasyon Qurumu (HAQ) nişanının istifadə qaydaları

- ***Türkiyə Respublikasının Halal Akkreditasiya Qurumu tərəfindən AQTİ publik hüquqi şəxsə verilən "HAQ" Halal Akkreditasiya nişanı və onunla birlikdə istifadə edilən AQTİ Halal uyğunluq nişanı müştərilərə verilən sertifikatda istifadə olunur.***
- ***AQTİ publik hüquqi şəxsinin HALAL Uyğunluğun qiymətləndirilməsi fəaliyyətlərində (hesabat, sənəd, yazılı və görüntülü materiallarda) HAK akkreditasiya nişanını "AKR-Rh-005 HAK Resmi Logosu ve Helal Akreditasyon Markasının Kullanım ve İzlenebilirlik Rehberi" sənədinin ən son versiyasına görə istifadə edə bilər. Bu sənədin ən son versiyasını https://www.hak.gov.tr/helal-akreditasyon/helal-akreditasyon-markasi veb səhifəsindən əldə edilir.***
- ***AQTİ publik hüquqi şəxsinin HALAL Uyğunluğun qiymətmətləndirilmiş müştəriləri "HAK" akkreditasiya nişanını hazır məhsullarında, binalarında, bayraqlarda, maşınlarda, broşurlarında istifadə edə bilməzlər. Lakin AQTİ Halal uyğunluq nişanının alt hissəsində "***_Türkiyə Respublikası Halal Akkreditasiya Qurumundan akkreditasiya edilmişdir._***" cümləsi şəklində işlədilə bilər (Şəkil C).***
- ***HAK akkreditasiya nişanı A4 ölçüsündən böyük olmayan sərf materiallarında nəşr olunursa, en tərəf nisbətini sabit saxlamaqla hündürülüyü 40 mm-dən çox olmamalıdır. HAK akkreditasiya nişanı minimum hündürlüyü 20 mm olmalıdır."HAK" halal akkreditasiya nişanının istifadə olunacağı sənəd rəngli fona malikdirsə, "HAK" akkreditasiya nişanı ağ fonda çərçivəyə salınmalıdır.***
- ***"HAK" halal akkreditasiya nişanı heç bir məqsədlə zədələnməməli, onun forması dəyişdirilməməli, elektron versiyasında olduğu kimi istifadə edilməlidir.***
- ***"HAK" halal akkreditasiya nişanının istifadəsinə icazə verilməyən hallarda akkreditasiyaya yazılı istinad edilə bilməz.***

- ***AQTİ publik hüquqi şəxsi "HAK" akkreditasiya nişanını öz broşurlarında veb səhifəsində , sərgilərdə Şəkil B – dəki kimi istifadə edə bilər . "HAK" akkreditasiya nişanı, AQTİ publik hüquqi şəxsi nişanından və ya adından daha çox gözəbatan olmamalıdır.***

***Qeyd : Halallıq nişanlarını istifadə edilməsi aşağıdakı cədvəl 1-də göstərilmişdir. Bu cədvəldə sertifikatlaşdırılan müştəri və sertifikatlaşdırma organı nişanları hansı yerlərdə istifadə edicəyi barəsində məlumatlar, bu təlimatda göstirilən şəkillərlə ifadə edilmişdir.***

***Cədvəl 1.***

| İstifadə yerləri | Sertifikatlaşrılan müştəri | Sertifikatlaşdırma organı: AQTİ PHŞ |
|---|---|---|
| Məhsulun birinci qablaşdırmasında | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Məhsulun ikinci qablaşdırmasında | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Dadım üçün məhsullar | Istifadə edilmir | İstifadə edilmir |
| Büyük ölçülü reklamlar | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Posterlər | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Video roliklər | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Broşurlar | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Internet səhifəsi | Şəkil A və ya şəkil C | Şəkil A və Şəkil B |
| Bayraqlarda | Şəkil A | Şəkil A və Şəkil B |
| Maşınlarda | Şəkil A | Şəkil A |
| Qələm və dəftərlərdə | Şəkil A | Şəkil A |
| Hədiyyə kartlarında | Şəkil A | Şəkil A |
| Təqvim kartlarında | Şəkil A | Şəkil A |
| Pəncərə və qapılarda | Şəkil A | Şəkil A və Şəkil B |
| Sərgi və kataloqda | Şəkil A | Şəkil A və Şəkil B |
| Bütün hesabat və ya protokollarda | İstifadə edilmir | Şəkil A və Şəkil B |

*Şəkil A: AQTİ Halal uyğunluq nişanı*

***<u>Loqonun tərkibində istifadə edilən rəng kodları aşağıdakı kimidir:</u>***

***Yaşıl rəng:***

*HEX: #1e4624*

*RGB: rgba(30,70,36,255)*

***Ağ rəng:***

*HEX: #fffffe*

*RGB: rgba(255,255,254,255)*

***Qızılı rəng:***

*HEX: #d6a761*

*RGB: rgba(214,167,97)*




***<u>Şəkil 1. HALAL uyğunluq nişanının ölçüləri</u>***

***<u>HAQ tərəfindən akkreditasiya edildikdən sonra loqo əlavə ediləcəkdir.</u>***

***Şəkil B:  HAK Halal Akkreditasiya nişanı***




Türkiyə Respublikası Halal Akkreditasiya
Qurumundan akkreditasiya edilmişdir.

***Şəkil C:***  *AQTİ Halal uyğunluq nişanı HAQ tərəfindən akkreditasiya edilməsinin istifadəsinə dair nümunə.*